# İDMAN

www.azsport.az

Qəzet 1932-ci ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN ORQANI

№ 14 (7109) 13 iyul 2021-ci il Qiyməti 40 qəpik


## Azərbaycan idmançıları Tokio Olimpiadasına qələbə əzmi ilə yola düşəcəklər

TOKYO 2020



***Dünyanın ən böyük idman yarışının başlamasına 10 gün qalır. Tokio Olimpiadasına vəsiqə əldə etmiş Azərbaycan atletləri son hazırlıq mərhələsində səylə çalışaraq həyəcanla karyeralarının ən vacib yarışının başlayacağı tarixi gözləyirlər.***

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın ibarəsi ilə desək Tokio növbəsində "Olimpiya Oyunları tarixində ən hazırlıqlı şəhər" kimi öz qəhrəmanlarını səbirsizliklə gözləyir. Dünyada uzun sürən pandemeya şəraiti bütün sahələrə böyük ziyan vursa da, insanların millərdən süzülüb gələn Olimpizm ruhunu qıra bilməyib. Dünyanın ən qabaqcıl idman ölkələrindən biri kimi Azərbaycan komandası bir ənənə olaraq növbəti Olimpiadaya da qələbə əzmi ilə yola düşəcək.

Tokio Olimpiadasında Azərbaycan komandası 14 idman növü üzrə 40 lisenziya qazanıb. Ötən Olimpiya Oyunlarının statistikasına nəzər salsaq, həm iştirakçıların, həm də medalların sayına görə güləş komandamız hər zaman fərqlənib. Rio Olimpidasında güləşçilərimiz 14 idmançı ilə təmsil olunub və olimpiadada qazanılan medalların (18 medal) tən yarısını - 9 medal qazanıblar. 3 idmançımızın finalda mübarizə aparması çox böyük nəticə olsa da, həlledici mərhələdə hər üçünün məğlub olmasını bəxt amili ilə də əlaqələndirmək olar. Tokioya isə güləşçilərimiz 7 idmançı (sərbəst güləş üzrə Hacı Əliyev (65 kq), Hacımurad Hacıyev (74 kq), Şərif Şərifov (97 kq), yunan-Roma güləşi üzrə İslam Abbasov (87 kq), qadın güləşi üzrə Mariya Stadnik (50 kq), Elis Monolova (67 kq) ilə yola düşəcəklər.

⇨ səh. 2



## "Tokio-2020": Duyğularla birləşib sabahı kəşf edən idman bayramı

***Bəşəriyyət tarixinin ən böyük idman festivalının başlanmasına sayılı günlər qalıb. Avropa futbol çempionatından sonra diqqət Yaponiya paytaxtı Tokioya - iyunun 23-dən avqustun 8-dək keçiriləcək XXXII Yay Olimpiya Oyunlarına, avqustun 24-dən sentyabrın 5-dək XVI Yay Paralimpiya Oyunlarına yönələcək.***

Bu Oyunlar hələ proqramı elan ediləndən sonra bir çox xüsusiyyətləri ilə tarixdə yerini alıb. Lakin Oyunları xüsusiləşdirən məqam 2019-cu ilin dekabrından bəşəriyyəti ağuşuna alan COVID-19 koronavirus pandemiyasıdır. Buna qədər müharibələr səbəbilə olimpiadalar təxirə salınıb, başqa heç bir hadisə dördilliyin ən böyük idman bayramına mane ola bilməyib. Ötən il keçirilməli olan, ancaq pandemiya səbəbilə mart ayının 24-də təxirə salınan Tokio olimpiadasının başı üzərini alan qara buludlar bir il sonra - mart ayının 21-də aradan qaldırıldı. Doğrudur, bir çox məhdudiyyətlər qüvvəsində qalacaq və hələ də idman arenalarındakı mübarizənin tarixə necə düşəcəyi bəlli deyil. Həm də idman yarışının bəzəyi olan əcnəbi tamaşaçıların ilk dəfə arenalara buraxılmayacağı elan edilib. İyulun 8-də isə hətta yaponiyalıların da Tokio, Kanaqava, Saytama və Tiba prefekturalarındakı yarışları arenadan izləyə bilməyəcəyi bildirilib.

⇨ səh. 4

## 53 ildən sonra İtaliya yenə zirvədə

### *Dünya və idman naminə tarixin ən rəmzi qələbəsi*




***Avropaya böyük futbol qayıdır - özü də, mübaliğəsiz deyərdim ki, böyük və tarixi missiyası ilə qayıdır. Nəhayət, son ilyarımın bəşəriyyəti lərzəyə salan COVID-19 adlı pandemiyasının təhlükəsi qalsa da, insan və onun əsas idealları sayəsində bu gözəgörünməz bəla prinsipial psixoloji zərbəsini alıb.***

Hələ o da rəmzi sayıla bilər ki, qitənin yubiley çempionatını bir il təxirə salsa da, onun adını və imicini dəyişə bilməyən, sərhədləri bağlasa, insanları evlərinə qapasa belə, pandemiyanın hədə-qorxulu və xoflu şərtlərinə rəğmən, çempionat qitənin şimalından cənubuna, şərqindən qərbinə qədər 11 ölkənin 11 şəhərinin 11 arenasına səpələnərək bu tarixi missiyanı şərəflə başa vurdu.

Həm də son illərdə maliyyənin avazının təsiri altında böyük biznes infrastrukturuna çevrilməkdə olan və cazibəsini pul dalınca qaçaraq itirməkdə olan idman, ilk növbədə və xüsusən şah əsəri futbol sayəsində qorxu və xofa qalib gəlməyin yolunu göstərir. Ötən il milli çempionatlar, qitələrin klub, millilərin seçmə yarışları ilə asta-asta məhdudiyyətlərə, məhrumiyyətlərə son qoyan idman cazibəsilə planeti özünə qaytarmağa başladı.

Bu qayıdışın zirvəsi bir yanda Avropanın, o biri yanda Cənubi Amerikanın yaşıl meydanlardakı mübarizə ilə dünyanı ayağa qaldıran qitə çempionatlarıdır. Xüsusən "Əski dünya"da futbol tamaşasını azarkeşsiz qoymayan UEFA, zənnimcə, daha bir vacib və məsul qərarının da təntənəsini qeyd edə bilər. Minimal sayda olsa da, coşan tribunalar, teleekranlar qarşısında olan dünyaya da həzzin dadını qaytardı.

⇨ səh. 6

## Güclünün bəxti, yoxsa taleyin rəhmi?

### Cavab özü həsrətdədir



***Bu il Avropa klub futbolu meydanlarına qitə özü fərqli yolla gedir. Konfranslar liqasının gətirdiyi yeni mizan-tərəzi ilə hər şey, ilk baxışda, bir qədər mürəkkəbləşmiş görünür.***

Lakin burada güclülərlə zəiflərin əbədi fəlsəfi səviyyə barışmazlığından doğan həqiqət meyarları da var. Elə bu yaxınlara qədər nəhənglərin cəhd göstərdiyi yeni yarış formatı mümkün üsyanların son illərdəki növbəti işartısı kimi də qəbul oluna bilər. İdman mübarizəsi istər-istəməz maliyyə axını artdıqca, onun sehri və təsiri altına düşməyə başlayır. Mahnını sifariş edən isə yerində saymaq və ya gözləmək istəmir. Belə olduqda, güclülərlə zəiflər arasında kəskin təzadlar, uçurum da sözünü deməyə başlayır.

⇨ səh. 7

# Azərbaycan idmançıları Tokio Olimpiadasına qələbə əzmi ilə yola düşəcəklər



*(Əvvəli 1-ci səhifədə)*

Komandanın heyətində Olimpiya çempionu Şərif Şərifov, olimpiya Oyunlarının bürünc, iki dəfə gümüş mükafatçısı Mariya Stadnik kimi yüksək titullu idmançılar, eləcə də, dünya, Avropa çempionatlarının qalib və mükafatçıları yer alıb. Ümid edirik ki, bu dəfə güləşçilərimiz daha çox medalların keyfiyyətinə diqqət yetirəcəklər. Azərbaycan Güləş Federasiyasından "İdman" qəzetinə verilən məlumata görə, güləşçilərimizin olimpiadaya hazırlığı intensiv şəkildə davam edir.

Polşada iyunun 8-13-də keçirilən yarışda lisenziyaçılar (Elis Monolova istisna olmaqla) bir daha sınaqdan keçirilib. Göygöldə Amerikadan dəvət olunmuş mütəxəssis Mark Alan Filippinin rəhbərliyi ilə fiziki hazırlıq üzrə məşqlər təşkil edilib. Qadınlardan ibarət komandamız Soçidə Rusiya komandası ilə birgə təlim-məşqlər keçdikdən sonra Göygöldə hazırlıq məşqinə başlayıblar. Qadın və sərbəst güləşçilər iyulun 18-də, yunan-Roma güləşçiləri isə 15-də Bakıya qayıdacaqlar və son məşqləri Bakıda edəcəklər. Güləşçilərimiz iyulun 25-26-da COVİD-19 testindən keçəcəklər, iyulun 27- Tokioya yola düşəcəklər.



Güləşçilərlə yanaşı, cüdo, boks və ilk dəfə olimpiadada təmsil olunacaq karate idman növlərində medal şanslarımız daha yüksəkdir.

Tokio Olimpiadasına ən çox lisenziyanı cüdoçular əldə ediblər - 9 vəsiqə. Cüdo üzrə Olimpiya reytinqinə əsasən müəyyənləşən vəsiqələrə 110 ölkənin cüdoçuları sahib olublar ki, onların arasında da Azərbaycan millisinin 12 üzvü də var. Cüdo tariximizdə ilk dəfə olaraq kişilərdən ibarət milli komandamızın Olimpiya Oyunlarına tam heyətlə yollanacağı rəsmiləşib. Cüdoçularımızdan Kəramət Hüseynov (60 kq), Orxan Səfərov (hər ikisi 66 kq), Rüstəm Orucov, (73 kq), Murad Fətiyev (81 kq), Məmmədəli Mehdiyev (90 kq), Zelim Kotsoyev (100 kq) və Uşanqi Kokauri (100 kq-dan yuxarı) olimpiadada iştirak edəcəklər.

Qadınlardan ibarət millimizin heyətində isə Aişə Qurbanlı (48 kq) və İrina Kindzerska (78 kq-dan yuxarı) "Tokio-2020"də iştirak hüququna yiyələniblər.

Cüdoçularımızdan ən yüksək nəticə Rüstəm Orucov (dünya reytinqində 2 yer) və İrina Kindzerskaya (dünya reytinqində, 3 yer) məxsusdur.

Tatami ustalarımız iyulun 1-dən Xorvatiyanın Poreç şəhərində keçiriləcək beynəlxalq təlim-məşq toplanışında hazırlıqlarını artırırlar.

Daha bir idman növündə-boks yarışlarında Azərbaycan geniş heyətlə təmsil olunacaq. Boksçularımız İtaliynın Assizi şəhərində, əsasən fiziki və taktiki hazırlıq üzrə çalışırlar. Onların növbəti günlərdə sınaq görüşləri də planlaşdırılır. Toplanışa "Tokio-2020"yə lisenziya qazanan Tayfur Əliyev (57 kq), Cavid Çələbiyev (63 kq), Lorenzo Sotomayor (69 kq), Alfonso Dominqes (81 kq) və Məhəmməd Abdullayev (+91 kq) qatılıblar. Umberto Orta Dominqesin baş məşqçisi olduğu millimiz iyulun 18-dək İtaliyada hazırlıq keçdikdən sonra Olimpiadanın təşkil olunacağı Tokioya yollanacaq. Ötən olimpiadada bürünc sindromunu qıraraq boks komandasının aktivinə gümüş medal yazdıran boksçularımızdan bu dəfə qızıl medal gözləmək olar.

Boks üzrə mütəxəssislər lisenziya turnirində bütün rəqiblərini məğlub edərək qalib olan Alfonso Dominqesə, təcrübəli boksçu, Rio Olimpiadasının gümüş medalçısı Lorenzo Sotomayora, eləcə də, Tayfur Əliyev və digər boksçulara Olimpiya Oyunlarında böyük ümidlər bəslənildiyini bildirirlər.

Qeyd edək ki, Tokio Olimpiadasının boks yarışları iyulun 24-də start götürəcək və avqustun 8-də başa çatacaq. Qarşılaşmalar "Ryoqoku Kokuqikan" İdman Sarayında keçiriləcək.

Olimpiadada ilk dəfə təmsil olunacaq karate idman növü üzrə isə komandamız 3 lisenziya qazanıb. İrina Zaretska (+61 kq) və Rafael Ağayev (75 kq) reytinqə əsasən, Firdovsi Fərzəliyev (67 kq) isə Parisdə keçirilmiş lisenziya xarakterli yarışda Olimpiadada iştirak hüququna sahib olublar.





Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov müsahibəsində bu nəticənin komandamız üçün çox yüksək göstərici olduğunu, Olimpiya Oyunlarında mübarizənin isə çox gərgin keçəcəyini bildirib. O, qeyd edib ki, komandamızın yüksək nəticələr əldə edəcəyinə əmindir.

Beşqat dünya, dəfələrlə Avropa çempionu olmuş Rafael Ağayev Tokio Olimpiadasında qızıl medal qazanacağına əminliyini ifadə edib: "Vaxt yaxınlaşdıqca həyəcan da artır. Özümə, eləcə də komandamıza inanıram. Tokioya qızıl medal üçün gedirəm və əminəm ki, bu çətin işin öhdəsindən gələcəyəm. Düşünürəm ki, yaxşı formadayam".

Olimpiadanın karate yarışları avqustun 5-7-də Nippon Budokan mərkəzində keçiriləcək.

Ötən Olimpiadada ən yaxşı nəticə taekvondo idman növü üzrə qazanılıb. Belə ki, Olimpiadaya ilk dəfə tam heyətlə (4 idmançı) yollanan taekvondoçularımızdan üçü medal qazanıb. Ölkəmiz yeganə qızıl medalı da məhz bu idman növündə əldə edib. Bu dəfəki yarışda iki taekvondoçumuz - Milad Beiqi Hərçiqani (80 kq) və Fəridə Əzizova (67 kq) iştirak edəcək. Hər iki idmançımız ölkəmizi Rio Olimpiadasında təmsil edib. Milad yarışda bürünc medal qazanıb, Fəridə isə 5-ci yeri tutub.

Gimnastlarımız da bu nüfuzlu yarışda iştirak etmək üçün çıxış proqramlarını daha da təkmilləşdirirlər. Azərbaycan Tokio-2020 çərçivəsində 3 gimnastika növü üzrə 4 yarışda təmsil olunacaq. Bədii gimnastika üzrə yarışlarda təmsilçimiz Zöhrə Ağamirova (fərdi proqram) və Zeynəb Hümmətova, Ləman Əlimuradova, Yelizaveta Luzan, Darya Sorokina və Nərminə Səmədovadan ibarət qrup hərəkətləri komandasıdır. Qeyd edək ki, ölkəmiz Olimpiadada qrup hərəkətləri komanda yarışlarında 13 ildən sonra yenidən qatılacaq.

İki gimnastımız isə idman gimnastikası üzrə yarışlarda iştirak edəcək: qadın idman gimnastikası üzrə yarışmada Marina Nekrasova, kişi idman gimnastikasında isə İvan Tixonov medallar uğrunda mübarizə aparacaq. Xatırladaq ki, Marinanın əldə etdiyi lisenziya Azərbaycanın qadın idman gimnastikası tarixində qazanılmış ilk Olimpiya lisenziyasıdır.

Gimnastika yarışları Tokionun Ariake Arenasında baş tutacaq.

Bundan başqa, atletika üzrə Anna Skidan, Nazim Babayev, üzgüçülük üzrə Maksim Şemberev, Məryəm Şeyxəlizadəxangah, güllə atıcılığı üzrə Ruslan Lunyov, velosiped idmanı üzrə Elçin Əsədov, badminton üzrə Edi Reski Dviçayo, triatlon üzrə Rostislav Pevtsov, stend atıcılığı üzrə Emin Cəfərov, qılıncoynatma üzrə Anna Baştanı da olimpiadaya ümidlərlə yola salırıq.

İdmançılarımızın medal şansları ilə bağlı Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadənin proqnozunu xüsusi vurğulamaq olar. Ç.Hüseynzadə jurnalistlərə açıqlamasında Olimpiya komandamızın azı 8 medal qazana biləcəyini deyib.

Sonda onu da qeyd edək ki, Azərbaycan yığmasının Olimpiya Oyunlarındakı bayrağını 3-cü dəfə cüdoçu daşıyacaq. Tokio Yay Olimpiya Oyunlarının açılış mərasimində bayrağımızı dalğalandıracaq Rüstəm Orucova qədər iki cüdoçu bu şərəfə nail olub. R.Orucov açıqlamasında Tokioya daha çox bayraq aparmaq yox, onu qaldırmaq və himnimizi səsləndirmək üçün gedəcəyini bildirib: "Sevincimin həddi-hüdudu yoxdur. Bir dəfə Avropa Oyunlarında bayraqdar olmuşam. İkinci dəfə seçilməyim xoş sürprizdir. Məni bayrağı aparmağa layiq görənlərə təşəkkür edirəm. Bu mənim üçün şərəfdir. Amma onu bildirim ki, mən daha çox bayraq aparmaq yox, onu qaldırmaq və himnimizi səsləndirmək üçün Tokioya gedəcəyəm".



Azərbaycan komandasının öz ənənəsinə sadiq qalaraq böyük zəfərlə Vətənə qayıdacağına əminik.

***L.Qurbanova***

# Tokio Olimpiadasına lisenziya qazanmış Azərbaycan idmançıları



**Anna Skidan**
**Təvəllüdü:** 15.05.1992
**İdman növü:** atletika (disk atma, çəkicatma və nüvə itələmə yarışı üzrə)

**Mariya Stadnik**
**Təvəllüdü:** 03.12.1988
**İdman növü:** qadın güləşi
**Çəki dərəcəsi:** 50 kq

**Zöhrə Ağamirova**
**Təvəllüdü:** 08.08.2001
**İdman növü:** bədii gimnastika
**Proqram:** Fərdi

**Ləman Əlimuradova**
**Təvəllüdü:** 29.11.2004
**İdman növü:** Bədii gimnastika
**Proqram:** Qrup hərəkətləri

**Zeynəb Hümmətova**
**Təvəllüdü:** 06.12.1999
**İdman növü:** Bədii gimnastika
**Proqram:** Qrup hərəkətləri

**Yelizaveta Luzan**
**Təvəllüdü:** 14.03.2003
**İdman növü:** Bədii gimnastika
**Proqram:** Qrup hərəkətləri

**Nərminə Səmədova**
**Təvəllüdü:** 10.06.2004
**İdman növü:** Bədii gimnastika
**Proqram:** Qrup hərəkətləri

**Darya Sorokina**
**Təvəllüdü:** 29.11.2002
**İdman növü:** Bədii gimnastika
**Proqram:** Qrup hərəkətləri



**Ruslan Lunyov**
**Təvəllüdü:** 25.07.1989
**İdman növü:** güllə atıcılığı (25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma)

**Marina Nekrasova**
**Təvəllüdü:** 19.04.1995
**İdman növü:** idman gimnastikası (çoxnövçülük yarışlarında)

**İvan Tixonov**
**Təvəllüdü:** 21.04.1996
**İdman növü:** idman gimnastikası (çoxnövçülük yarışlarında)

**Elçin Əsədov**
**Təvəllüdü:** 12.02.1987
**İdman növü:** Velosiped idmanı (şose velosipedi)

**Milad Beiqi Hərçəqani**
**Təvəllüdü:** 01.03.1991
**İdman növü:** taekvondo
**Çəki dərəcəsi:** 80 kq

**Nazim Babayev**
**Təvəllüdü:** 08.10.1997
**İdman növü:** atletika (üçtəkanla tullanma)

**Şərif Şərifov**
Təvəllüdü: 11.11.1988
**İdman növü:** sərbəst güləş
**Çəki dərəcəsi:** 97 kq



**Hacı Əliyev**
**Təvəllüdü:** 21.04.1991
**İdman növü:** Sərbəst güləş
**Çəki dərəcəsi:** 65 kq

**Hacımurad Hacıyev**
**Təvəllüdü:** 12.10.2000
**İdman növü:** sərbəst güləş
**Çəki dərəcəsi:** 74 kq

**İslam Abbasov**
**Təvəllüdü:** 24.03.1996
**İdman növü:** Yunan-Roma güləşi
**Çəki dərəcəsi:** 87 kq

**Anna Başta**
**Təvəllüdü:** 23.01.2001
**İdman növü:** qılıncoynatma

**Fəridə Əzizova**
**Təvəllüdü:** 06.06.1995
**İdman növü:** taekvondo
**Çəki dərəcəsi:** 67 kq

**Elis Manolova**
**Təvəllüdü:** 17.01.1996
**İdman növü:** qadın güləşi
**Çəki dərəcəsi:** 68 kq

**Tayfur Əliyev**
**Təvəllüdü:** 01.01.1997
**İdman növü:** boks
**Çəki dərəcəsi:** 57 kq



**İrina Zaretska**
**Təvəllüdü:** 04.03.1996
**İdman növü:** karate
**Çəki dərəcəsi:** +61 kq

**Rafael Ağayev**
**Təvəllüdü:** 04.03.1985
**İdman növü:** karate
**Çəki dərəcəsi:** 75 kq

**Edi Reski Dviçayo**
**Təvəllüdü:** 13.05.1998
**İdman növü:** badminton

**Cavid Çələbiyev**
**Təvəllüdü:** 17.05.1997
**İdman növü:** boks
**Çəki dərəcəsi:** 63 kq

**Alfonso Dominqes**
**Təvəllüdü:** 28.05.1995
**İdman növü:** boks
**Çəki dərəcəsi:** 81 kq

**Lorenzo Sotomayor**
**Təvəllüdü:** 16.02.1985
**İdman növü:** boks
**Çəki dərəcəsi:** 69 kq

**Rafiq Hüseynov**
**Təvəllüdü:** 16.05.1988
**İdman növü:** Yunan-Roma güləşi
**Çəki dərəcəsi:** 77 kq



**Firdovsi Fərzəliyev**
**Təvəllüdü:** 10.07.1993
**İdman növü:** karate
**Çəki dərəcəsi:** 67 kq

**Rostislav Pevtsov**
**Təvəllüdü:** 15.04.1987
**İdman növü:** triatlon

**Aişə Qurbanlı**
**Təvəllüdü:** 28.04.1993
**İdman növü:** cüdo
**Çəki dərəcəsi:** 48 kq

**Rüstəm Orucov**
**Təvəllüdü:** 04.10.1991
**İdman növü:** cüdo
**Çəki dərəcəsi:** 73 kq

**İrina Kindzerska**
**Təvəllüdü:** 13.06.1991
**İdman növü:** cüdo
**Çəki dərəcəsi:** +78 kq

**Zelim Kotsoyev**
**Təvəllüdü:** 09.08.1998
**İdman növü:** cüdo
**Çəki dərəcəsi:** 100 kq

**Məhəmməd Abdullayev**
**Təvəllüdü:** 06.04.1999
**İdman növü:** boks
**Çəki dərəcəsi:** +91 kq



**Orxan Səfərov**
**Təvəllüdü:** 10.08.1991
**İdman növü:** cüdo
**Çəki dərəcəsi:** 66 kq

**Uşanqi Kokauri**
**Təvəllüdü:** 10.01.1992
**İdman növü:** cüdo
**Çəki dərəcəsi:** +100 kq

**Kəramət Hüseynov**
**Təvəllüdü:** 30.08.1998
**İdman növü:** cüdo
**Çəki dərəcəsi:** 60 kq

**Murad Fətiyev**
**Təvəllüdü:** 04.02.1999
**İdman növü:** cüdo
**Çəki dərəcəsi:** 81 kq

**Məmmədəli Mehdiyev**
**Təvəllüdü:** 09.04.1993
**İdman növü:** cüdo
**Çəki dərəcəsi:** 90 kq

**Məryəm Şeyxəlizadəxangah**
**Təvəllüdü:** 18.07.2004
**İdman növü:** üzgüçülük (100 m batterflyay)

**Emin Cəfərov**
**Təvəllüdü:** 12.10.1979
**İdman növü:** stend atıcılığı (skeet men)

**Maksim Şemberev**
**Təvəllüdü:** 25.09.1992
**İdman növü:** üzgüçülük (400 metr məsafəyə qarışıq üsulla)

# “Tokio-2020”: Duyğularla birləşib sabahı kəşf edən idman bayramı




*(Əvvəli 1-ci səhifədə)*

Amma Sizuoka, İbaraki, Fukusima və Miyagi əyalətlərinin tamaşaçı sarıdan bəxti gətirib.

Ümumən 600 min olimpiada, 300 min paralimpiada biletlərinin geri çağırılması, sözsüz ki, maliyyə baxımından təşkilatçılara və BOK-a zərbə olacaq. Üstəlik, Yaponiyada pandemiyanın 4-cü dalğası başlanıb və iyul ayının 12-dən ölkədə karantin rejimi tətbiq ediləcək. Bunlara rəğmən, eyni zamanda Yaponiyada Oyunların ləğv edilməsi kampaniyası başladılsa belə, mübarizə meydanı qızışacaq və böyük idmanın tarixi missiyasının təntənəsini elə bununla da qeyd etmək olar. Sərhəd tanımayan, insanların bərabərlik və birlik, sülh məramının sədası olan olimpiada bu dəfə də insan iradəsinin və həqiqətən də onun ali varlıq kimi çətinliklərə sinə gərməsinin təntənəsi tərənnümünə çeviriləcək.



Tokio Beynəlxalq Olimpiya Komitəsinin (BOK) 2013-cü il sentyabrın 7-də Argentina paytaxtı Buenos Ayresdə keçirilən 125-ci Sessiyasında növbəti Oyunların vətəni seçilib. Seçim marafonu isə 10 il əvvəl - 2011-ci il sentyabrın 1-də başlayıb. Arasında Bakı da olmaqla 6 şəhər böyük yürüşə qoşulub. Roma (İtaliya) və Doha (Qətər) ilk mərhələlərdə mübarizədən kənarlaşıblar. Final mərhələsində Tokio 42, İstanbul (Türkiyə) və Madrid (İspaniya) hərəyə 26 səs toplayıblar. Son iki şəhər arasından İstanbul (49 səs) 4 səs üstünlüyü ilə həlledici səsverməyə yüksəlib. 1964-cü il Oyunlarının vətəni olmuş Tokio böyük üstünlüklə (60 səs 36-ya qarşı) beşinci dəfə iddialı olan İstanbula qalib gələrək tarixində ikinci dəfə olimpiadaya vətən olmaq şərəfinə nail olub.

Oyunlar üçün 46 təklif arasından məşhur memar, Heydər Əliyev Mərkəzinin də müəllifi olan Zaha Hədidin layihələndirdiyi 80-minlik yeni stadion inşa olunmalı idi. Bu layihə yerli memarlıq ansamblına uyuşmayan hesab edilərək, 2015-ci ildə yerli memar Kenqo Kumanın layihəsi əsasında 68 minlik arena (futbol yarışları zamanı daha 15 min yer əlavə oluna bilər) tikilib. Ümumiyyətlə, 42 yarış meydanından 28-i bir-birindən ən uzağı 8 km məsafədə yerləşir. Onlardan cəmi 8-i yeni, 10-u müvəqqəti tikilidir. Say baxımından bu da bir nəticədir. Məsələn, 5 il əvvəl Rioda 37, Londonda isə bundan da az - 31 arena idmançıların mübarizə meydanına çevrilmişdi. Yarış arenalarından biri xüsusi seçilir. Marafon və idman yerişinin finiş xətti XV əsrin İmperator sarayının yerləşdiyi məkanda olacaq. Yuxarıda qeyd edildiyi kimi, Oyunlar təkcə Tokioda keçirilməyəcək: Yokohama, Saytama, Senday, Kasima və Sapporo futbolu, Fukusima beysbol və softbolu, Enosima adası yelkən idmanını, Tiba çimərliyi isə sörfinqçiləri qonaq edəcək.

Ümumən, bütün areanalara audit qiymətləndirməsi ilə 25 milyard dollar xərclənib. Obyektlərin inşasında ekoloji tarazlıq məsələlərinə diqqət edilib. Bəzi areanalar yerli sidr ağacındandır, başqalarında oturacaqlar və əsas istifadə avadanlıqları ağacdandır. Voleybol arenası və bir neçə digər qurğu Günəş batareyaları və geotermal istilik avadanlıqları ilə təchiz edilib.

Yarışların bir rekordu da medallar olacaq. 33 idman növündə 50 proqram üzrə 339 medal dəsti uğrunda mübarizə aparılacaq (Müqayisə üçün, Rioda 28 növdə 306, Londonda 26 növdə 302 idi). Ən çox medal dəsti, təbii ki, atletikada (48) və üzgüçülükdədir (37). 33 medal dəstindən 18-i yeni növlərin hesabına artırılıb. Bu xüsusda qeyd edək ki, 2016-cı il avqustun 3-də ”Rio-2016” ərəfəsində BOK-un 129-cu Sessiyasında daha 4 növ - karate (kata və kumite), sörfinq (qaliblər proqram mürəkkəbliyi ilə ölçüləcək), qayayadırmanma (sürətli dırmanma, boulderinq, alpinizm) və skeytbordinq (küçə və park sədlərində vaxt, orijinallıq və mürəkkəblik) olimpiya proqramına salınıb, beysbolla softbol geri qaytarılıb. Özü də bu növlər yalnız ”Tokio-2020”nin proqramında olacaq.

**_Oyunlarda 15 proqram dəyişikliyi var:_**

***Ağırlıqqaldırma*** *(-1) - 1 kişi çəki dərəcəsi ləğv edilib;*

***Akademik avarçəkmə*** *(0) - 1 proqram kişilərdən qadınlara verilib;*

***Atletika*** *(+1) - 4x400 m estafeti (qarışıq komanda) əlavə olunub;*

***Basketbol*** *(+2) - 3x3 basketbolu (K və Q) əlavə olunub;*

***Boks*** *(0) - 2 çəki dərəcəsi kişilərdən qadınlara verilib;*

***Cüdo*** *(+1) - qarışıq komanda yarışı əlavə olunub;*

***Güllə atıcılığı*** *(0) - 3 proqram kişilərdən 3 qarışıq qoşa yarışa verilib;*

***Kanoe*** *(0) - 3 proqram kişilərdən qadınlara verilib;*

***Oxatma*** *(+1) - Qarışıq komanda yarışı əlavə olunub;*

***Qılıncoynatma*** *(+2) - Komanda yarışları (K və Q) əlavə olunub;*

***Stolüstü tennis*** *(+1) - Qarışıq qoşaların yarışı əlavə olunub;*

***Triatlon*** *(+1) - Qarışıq komanda yarışı əlavə olunub;*

***Üzgüçülük*** *(+3) - 800 m (K), 1500 m (Q), 4x100 m qarışıq estafeti (qarışıq komanda) əlavə olunub;*

***Velosiped*** *(+4) - BMX fristayl parkinq (K və Q) və medison (K və Q) əlavə olunub;*

***Yelkən*** *(0) - Katamaranlar sinfində qarışıq yarışın yeri qarışıq qoşalara verilib.*

Diqqətlə baxsaq, dəyişikliklər köklüdür. Növlər gəncləşir, küçə idmanı urbaznizasiya dövründə bu növlərin əyləncə xarakterini daha faydalı istiqamətə yönəldir, komanda və cütlüklərin yarışına üstünlük verilir, bəzi hallarda qadın-kişi yarış bərabərliyi yaradılır.

Yeni növ və proqramlar idmançı sayını təxminən 5 faiz, yəni 474 nəfər artırmalı idi. Lakin BOK bəzi məsələlərə əl gəzdirib: su polosunda komanda üzvləri 13-dən 11-ə endirilib. BMX-in fristaylında iştirak edəcək 14 nəfər veloşose və BMX-in digər proqramında iştirakçıların azaldılması hesabına əlavə olunub. Qarışıq komandaların və qoşaların yarışı üzrə lisenziyalar isə artıq iştirak hüququ olanların daha bir medal şansı deməkdir. Nəticədə, ənənəvi növlər ”Tokio-2020”də 285 idmançısını itirmiş olub.



**_İdmançı sayının dəyişməsinə də nəzər salaq:_**

***Ağırlıqqaldırmada*** *64 az (kişilərdə bir çəki dərəcəsi ilə 64 kişi idmançı lisenziyasının ləğvi);*

***Akademik avarçəkmədə*** *24 az (kişi idmançı lisenziyasının ləğvi);*

***Atletikada*** *105 az;*

***Basketbolda*** *64 çox (3x3 üzrə hər proqramda 4 nəfərlik 8 komanda);*

***Boksda*** *sabit (44 kişi yerinə 44 qadın);*

***Cüdoda*** *sabit (38 kişi yerinə 38 qadın);*

***Güləşdə*** *56 az (qadınlarla gender bərabərliyinin təmin edilməsi naminə hər üç proqram üzrə say azalması);*

***Güllə atıcılığında*** *30 az (qadınlarla gender bərabərliyinin təmin edilməsi naminə kişilərdən lisenziya ləğvi);*

***Kanoedə*** *(55 kişi yerinə 55 qadın);*

***Üzgüçülükdə*** *22 az;*

***Vaterpolda*** *18 az (iştirak limiti);*

***Velosipeddə*** *sabit (BMX ötüşmə və dağ velosipedinin hər birində 8 kişi yerinə 8 qadın; BMX fristaylın xeyrinə dağ velosipedindən 4, şosedən 14 yer itkisi);*

***Yelkəndə*** *30 az (gender bərabərliyi üçün kişilərdə lisenziya ləğvi).*

Medallar Oyunların hər günündə sahiblərinə qovuşacaq. İlk olimpiya çempionu iyulun 24-də bəlli olacaq. Ən çox medal dəsti isə (34 dəst) bağlanışdan bir gün əvvəl sahiblərinə təqdim ediləcək.

Medalların hazırlanması da maraq doğurur. Hər üç əyardan olan 5000-ə yaxın medal artıq istifadədən çıxarılmış mobil telefon və digər elektron avadanlıqların emalı yolu ilə hazırlanıb. Elan edilmiş müsabiqədə 400-dən artıq peşəkar, tələbə və başqaları iştirak edib. Yekunda Osaka Dizayn Cəmiyyətinin və Nişan Dizaynı Assosiasiyasının sədri Cüniçi Kavanisinin tərtibatı bəyənilib. Medal üçün istismardan çıxmış 79 ton texnika yığılıb. Maraq üçün deyək ki, onlar arasında təkcə mobil telefonların sayı 6,21 milyon olub. Yekunda 3,3 kq qızıl, 4100 kq gümüş, 2700 kq bürünc əldə olunub. Qızıl medalın çəkisi 556, gümüş 550, bürünc isə 450 qramdır. Medalın dizaynında Gündoğar ölkənin adət-ənənələri əsas götürülüb, ağ və və indiqo rəngli ənənəvi itimasu naxışları ilə bir tərəfdə ”Tokyo-2020”, əks tərəfdə isə olimpizmin emblemi və əntiq yunan ilahəsi Nika əks olunub. Medalların diametri 85 mm, qalınlığı ən qalın tərəfdə 7,7 mm, ən nazik tərəfdə isə 12,1 mm-dir. Ən yüksək əyarlı medalda təmiz gümüş səth üzərinə çəkilmiş 6 qram xalis qızıl var. Gümüş medallar qatışıqsız xalis gümüşdür. Bürüncdə isə latun ərintisidir. Onun 95 faizi mis, 5 faizi sinkdir.

Yaponsayağı qalmaqallar da bu olimpiadanın xüsusiyyətlərindən oldu. Təkcə Zaha Hədidin əl işi ləğv olunmadı. Oyunların rəmzlərindən biri də diqqət çəkdi. 2015-ci il iyulun 4-də dizayner Kenziro Sanonun işi rəsmi emblem kimi təsdiq olundu. Amma tezliklə belçikalı dizayner Olivye Debi




təqdimatdan iki il öncə Lyej teatrı üçün eyni loqonu hazırladığını bəyan etdi və emblem ləğv olundu. Daha sonra 2016-cı il aprelin 25-də milli müsabiqənin qalibi olmuş Asao Tokolanın təklif etdiyi dizayn qəbul edildi. Onun tərtibatı indiqo rənglərindən şahmat qaydası ilə düzülmüş halqalardan ibarət olmaqla Yaponiyaya xas zəriflik və incəliyi təcəssüm etdirir.

Həmin vaxt şüar yapon dilindən ”Ashita o tsukam?” (”Sabahı kəşf et” mənasında) qəbul edilmişdi. ”Ashita” hərfi mənada ”sabah” deməkdir, lakin tələffüz qaydasında yazılışı isə ”gələcək” kimi oxunur. Onu isə 2020-ci ilin fevralın 17-də elan edilmiş ”Duyğu ilə birləşənlər” (”United by emotion”) devizinə dəyişdilər.

***(Ardı 5-ci səhifədə)***

# "Tokio-2020": Duyğularla birləşib sabahı kəşf edən idman bayramı

(Əvvəli 4-cü səhifədə)

Rəmzlərdən söz düşmüşkən, 2018-ci il iyulun 22-də olimpiada üçün Miraytova (gələcək və əbədiyyət) və paralimpiada üçün Someyti (sakuranın bir növündən törəmə) canlı rəmzi - maskot seçilib. Adların seçimi Yaponiya ibtidai sinif məktəbliləri arasında səsvermə ilə aparılıb.

Ümumən, Rio Olimpiadası kimi, "Tokio-2020" də müxtəlif qalmaqallardan xali olmadı. Bu gün də olimpiada əleyhinə açıq etirazlar səslənir. Ən əsas məsələ, təbii olaraq, maliyyə ilə bağlıdır. Oyunların zərərinin çox olacağı indidən aydındır. Oyunların büdcəsi əvvəl 7 milyard dollar civarında qiymətləndirilmişdi. 2019-cu ilə bütün xərclərin 25 milyard dollara çatdığı deyildi. Məşhur "Blumberq"in tədqiqatlarına görə, Yaponiya Oyunlardan 13 milyard dollar itirəcək. Ölkə iqtisadiyyatı isə tamaşaçıların gəlişinə qoyulan qadağa ilə gözlənilən 1,38 milyardı




da turizm gəlirindən itirəcək.

Kansay Universitetinin professoru Kasuhiro Miyamoto olimpiadanın bir il təxirə salınmasının 5,8 milyard dollara başa gələcəyini hesablamışdı. Əlbəttə, zərərin yarısından qayıtmaq da yaxşıdır: həmin hesablamalara əsasən, Oyunlar keçirilməsəydi, ölkənin təkcə əməliyyat və turizm itkilərinin 41,5 milyard dollar olacağı da bildirilirdi.

Tokio Oyunlarının "Lloyd's of London" platforması üzrə kommersiya sığortası var. "Munich Re i Swiss Re." təşkilatı BOK-un xətti ilə hər olimpiadanı 800 milyon dollar sığorta edir. Lakin Oyunların zərərinin 2 milyard dollardan çox olacağı gözlənilir.

Əlbəttə, bütün bunlar bir gün yalnız tarixin bir xatirə parçasına çevriləcək. Tarixin özü isə, inanaq ki, ülvi bəşəri və insani dəyərləri özündə birləşdirən olimpizm ruhunun bütün maneələr üzrərində qələbəsi ilə yaddaşlara həkk olunacaq. Çünki olimpizm ideallarının təməlində insan və onun əzmi, iradəsi dayanır.

Bu ümidi isə Tokioya 206 ölkədən gələcək təxmini 11 min 91 idmançı alovlandırmalıdır. Onlar arasında Azərbaycan idmançıları da var. İnanaq ki, qarşıda bizi, atletikanın qaçış proqramının iki müsabiqəsinin dili ilə desək, bütün maneə və sədləri aşmış idmançıların gərgin mübarizəsi gözləyir. Elə bu inamla olimpiadanın bir-birini əvzləyən devizlərinin izi ilə "Duyğularla birləşib" "sabahı kəşf edən" idman bayramına köklənək.

**BATI YAR**

# AMADA "Tokio-2020"yə qatılacaq idmançılara və onları müşayiət edəcək heyətə müraciət ünvanlayıb



*Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) direktoru Şəfəq Hüseynlinin Tokio Yay Olimpiya Oyunlarında dopinq nəzarəti ilə bağlı yeniliklər və dəyişikliklərlə bağlı Olimpiadaya qatılacaq idmançılara və onları müşayiət edəcək heyətə müraciət ünvanlayıb.*

Müraciətdə Tokio Olimpiadasında COVID-19 pandemiyası səbəbindən baş verən dəyişikliklərin dopinq nəzarəti sahəsini də əhatə etdiyi vurğulanıb. Qeyd olunub ki, Oyunlar zamanı dopinq nəzarəti prosesi COVID-19 qaydaları nəzərə alınaraq həyata keçiriləcək. Oyunlarda dopinq nəzarətini həyata keçirmək üçün AMADA-nın da iki dopinq nəzarəti inspektoru iştirak edəcək.

Tokio Oyunlarında iştirak edəcək idmançılar və onları müşayiət edəcək heyət baş verən yenilikləri və dəyişikliklərlə nəzərə almaqla Olimpiada müddətində bütün qaydalara, o cümlədən də "Tokio-2020"nin antidopinq qaydalarına və AMADA-nın təlimatlarına tam və ciddi riayət etməlidir. Əks halda qaydalara əməl olunmaması antidopinq qayda pozuntusu kimi qiymətləndirilə və sanksiya ilə nəticələnə bilər. Oyunlarda dopinq nəzarəti baxımından bir sıra yeniliklər var. Belə ki, Beynəlxalq Olimpiya Komitəsi (BOK) ilk dəfə Yay Olimpiya Oyunları müddətində dopinq nəzarəti ilə bağlı öhdəliklərini Beynəlxalq Test Agentliyinə (BTA) həvalə edib. BTA isə Oyunlara hazırlıq müddətini və yarışların keçirildiyi dövrü əhatə edən geniş test planını icra edir. Olimpiya Oyunlarına lisenziya qazanmış idmançıların hamısı hazırlıq mərhələsində dopinq testinə cəlb edilir və hətta bəzi idmançılardan bir neçə dəfə dopinq testi götürülə bilər", - deyə AMADA-nın müraciətində vurğulanıb.

Bildirilib ki, Oyunlar müddətində hər bir idmançı əvvəlcədən xəbərdarlıq edilmədən dopinq testindən keçirilə bilər. Ona görə də idmançıların öz hüquqlarını, öhdəliklərini və antidpoinq qaydalarını bilmələri və ona uyğun davranmaları vacibdir. Əgər idmançı dopinq nəzarəti prosesində hər hansı nöqsan, uyğunsuzluq, hətta şübhəli bir məqam müşahidə edərsə yaxşı olar ki, bu barədə Dopinq Nəzarəti Formasının şərh bölməsində ətraflı yazsın. Bu, mümkün araşdırmalar zamanı həmin idmançının hüquqlarının müdafiəsi baxımından vacibdir.

Tokio Yay Olimpiya Oyunlarında ilk dəfə olaraq dopinq nəzarət prosesi kağızsız formada - MODOC sistemi ilə həyata keçiriləcək. Agentlik MODOC sistemini 2018-ci ildən tətbiq etdiyi üçün Azərbaycan idmançıları bu sistemlə tanışdır. Kağızsız dopinq nəzarət sistemi tətbiq edildiyi üçün idmançıların işlək elektron ünvanı olmalıdır. Çünki dopinq nəzarəti ilə bağlı bütün bildiriş və sənədlər həmin ünvana göndəriləcək. İdmançılar elektron ünvanlarını mütəmadi olaraq yoxlamalı və dopinq nəzarəti ilə bağlı gələn məktub və bildirişlərə çevik reaksiya verməlidir.

Müraciətdə vurğulanıb ki, Tokioya yollanacaq heyət üzvləri aparacaqları əşyalar, o cümlədən dərman vasitələri və tibbi ləvazimatlara diqqətlə yanaşmalıdırlar. Aparılan dərman vasitələri və tibbi ləvazimatlar Ümumdünya Antidopinq Agentliyinin qadağan edilmiş siyahısı, habelə Yaponiyaya gətirilməsi qadağan olan əşya, maddə və dərmanlarla bağlı siyahı ilə yoxlanılmalıdır. İdmançılar və onları müşayiət edəcək heyət özləri ilə apardıqları dərman və əşyaları əvvəlcədən bəyannamədə göstərməli və qadağan olunmuş siyahıda olanları qəti şəkildə aparmamalıdır (Terapevtik İstisnalar üçün İcazəsi (TİI) olanlar istisna olmaqla). Buna əməl olunmaması, hətta həmin şəxslərin ölkəyə buraxılmaması ilə nəticələnə bilər.

Olimpiya Oyunları zamanı BOK-un "İynəyə yox" siyasətinə riayət edilməsinin vacibliyinin xüsusi qeyd edildiyi müraciətdə diqqətə çatdırılıb: "Bu siyasət özündə iynə və inyeksiya üçün istifadə edilən ləvazimatlara ciddi nəzarəti ehtiva edir. Tokio Yay Olimpiya Oyunları zamanı idmançılar qidalanmaları zamanı diqqətli olmalıdırlar. Xüsusilə də tərkibində ət və ət məhsulları olan yeməkdən istifadə etdikdə həmin qidanın mənbəyinə diqqət yetirilməlidir. Çünki bəzi ət məhsullarının tərkibində qadağan edilmiş klenbuterol maddəsi ola bilər. Ona görə də idmançılara Olimpiya Kəndində və ya qida mənbəyi haqqında məlumat verə bilən yerlərdə qidalanmağa üstünlük vermələri tövsiyə olunur".

(Ardı 8-ci səhifədə)

# AGİN yanında İctimai Şuraya keçiriləcək seçkilərdə iştirak üçün 163 təşkilat qeydiyyata alınıb

*Gənclər və İdman Nazirliyi yanında İctimai Şuraya keçiriləcək seçkilərdə təmsilçi qismində iştirak üçün 165 təşkilat müraciət edib.*

İki təşkilatın sədrinin səlahiyyət müddəti başa çatdığı üçün onların imzaladığı sənəd qəbul edilməyib. Nəticədə 163 təşkilatın təmsilçisi qeydiyyata alınıb.

Seçkilər iyulun 15-də saat 10:00-dan 14:00-dək Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının zalında keçiriləcək.

# Paralimpiyaçılarımızın "Tokio-2020"yə qazandıqları lisenziyalar 34-ə çatıb

*Paralimpiyaçılarımızın "Tokio-2020"yə qazandıqları lisenziyaların sayı 34-ə çatıb.*

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) atletika üzrə milli komandasının üzvləri Lamiyə Vəliyeva və Yuliya Yanovskaya reytinq xalları qazandıran yarışlarda yüksək nəticələr göstərərək "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarına lisenziya əldə ediblər.

Bu günədək AMPK-nın idmançıları "Tokio-2020"yə 34 lisenziya əldə ediblər. Onlardan 11-i cüdo, 10-u atletika, 4-ü parataekvondo, 4-ü pauerliftinq, 3-ü üzgüçülük və 2-si güllə atıcılığı növündədir.

Qeyd edək ki, "Rio-2016" XV Yay Paralimpiya Oyunlarına Azərbaycan millisi 22 lisenziya qazanmışdı.

# Peşəkar idman jurnalistləri "Könüllü jurnalist" layihəsində




*Azərbaycan İdman Jurnalistləri Federasiyasının və Azərbaycan İdman Könüllüləri ictimai birliyinin birgə təşkilatçılığı ilə "Könüllü jurnalist" layihəsi həyata keçirilib.*

Layihə müddətində iyulun 6-dan 12-dək könüllülər peşəkar jurnalistlər tərəfindən keçirilən onlayn seminarlarda iştirak ediblər.

Layihənin əsas məqsədi jurnalistika sahəsinə maraq göstərən könüllülərə bu istiqamətdə dəstək olmaqdır.

İlk olaraq AİJF-nin vitse-prezidenti, "Futbol+" qəzetinin baş redaktoru Mahir Rüstəmli "Məqalə hazırlanmasında qızıl qaydalar" mövzusunda çıxış edib.

"Uğurlu müsahibə" mövzusunda növbəti seminarda AİJF-nin vitse-prezidenti, AFFA-nın Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Firuz Abdulla müsahibənin necə olması, sualların necə seçilməsi, uğurlu müsahibə üçün əsas şərtlər barədə danışıb, müsahibin haqqında əvvəldən məlumatlı olmağın əhəmiyyətini qeyd edib.

"Hər kəsin marağına səbəb olan xəbər" mövzusunda növbəti seminarda AİJF İdarə Heyətinin üzvü, azerisport.com saytının baş redaktoru Vüqar Zeynalov xəbərin məzmununun seçilməsi, xəbər hazırlayarkən diqqət edilməli məqamlar barədə söz açıb.

"TV-də xəbərin hazırlanması" mövzusunda AİJF İdarə Heyətinin üzvü, ATV kanalının İdman şöbəsinin redaktoru Sənan Şəfizadə televiziyadakı iş prinsipi haqqında, aktuallığına görə, xəbərlərin yayınlanma saatı, xəbərə komanda yanaşmasından bəhs edib. Uğurlu xəbərin hazırlanmasında operatorla müxbirin birgə çalışmasının önəmini vurğulayıb. Seminarda, həmçinin televiziyada xarici dildən və terminlərdən istifadə qaydası haqqında da məlumat verilib.

"Rəqəmsal jurnalistika" mövzusunda seminarda AİJF İdarə Heyətinin üzvü, Report İnformasiya Agentliyi İdman şöbəsinin redaktoru Elşən Məmmədov ənənəvi medianı rəqəmsal jurnalistikadan fərqləndirən xüsusiyyətlərdən, rəqəmsal jurnalistikanın üstünlüklərindən bəhs edib.

"PR və təqdimat bacarıqları" mövzusunda sonuncu seminarda AİJF İdarə Heyətinin üzvü, PR menecer Ellada Mustafayeva PR haqqında məlumat verib, onun üstünlükləri və öhdəliklərindən danışıb, təqdimat bacarıqlarına nələr daxil olduğunu qeyd edib.

# 53 ildən sonra İtaliya yenə zirvədə



*(Əvvəli 1-ci səhifədə)*

Elə qitə çempionatının da yekununu rəmzi qiymətləndirmək olar. Finalda qarşılaşan iki Avropa nəhəngi, sadəcə, meydan tamaşası deyil, həm də tarixi, futbol ənənələri, dəst-xətti və dəyişən həqiqətləri ilə bu rəmziliyə həyat və nəfəs verdi, onu canlandırdı. Yorğunluğundan, doymuş buxar təəssüratından qurtula bilsəydi, daha mütəhərrik futbol nümayiş etdirən İspaniyanı, habelə "əbədi maşın" timsalı ilə fərqli formada özünü göstərə bilsəydi, Almaniyanı, yaxud əsl "xoruzquyruğu", yaxud "xoruz pipiyi" eksklüzivliyi ilə coşan, amma yeknəsəq Fransanı da qitə çempionatının finalında görə bilərdik və bununla ab-hava, fərqli sözlərin şərhi ilə olsa da, kulminasiya məqamına çatacaqdı. Əlbəttə, yarımfinala qədər addımlayan "Qırmızı sap"ı ilə dünyaya inkişaf nümunəsi, dinamizmin dirçəliş yolunu göstərən Danimarka da final ovqatını korlamayacaqdı. Hələ, üstəlik, bu komanda 1992-ci il Danimarkasının timsalında möcüzələrə qadir olduğunu, liderli-lidersiz dəst-xətt və xarakter nümayiş etdirə biləcəyini göstərir. Bütün qeydlərimizlə yanaşı, İtaliya - İngiltərə finalı, zənnimcə, məntiqi zəncirlə ən ədalətli və yozumu olan finaldır.

Hər iki komandanın dünya futboluna bəzən arxaik görünən, simpatik olmayan apatik ənənələr, tarixi tərsliklər nümunələrini çox sadalaya bilərik. Lakin bu çempionatda hər iki komanda özünəməxsus dəyişikliklərlə yeni bir "Zəfər tağı"ndan keçməyə layiq olduğunu göstərdi. İtaliya lidersiz oynamaqla yanaşı, öz kattenççosunun təsirindən silkinən, bunun əvəzində komanda oyunu ilə parlaya biləcəyini sübut etdi. Baş məşqçisinin gətirdiyi tərzlə bahəm oyunçu seçimi buna haqq qazandırır. Bu futbolçuları bir araya gətirib, hər mövqedə tərz olan komanda toplamaq da böyük zəhmətin məhsuludur. Ən vacibi, bu heyətin üstünlüyü 17 futbolçunun yuxarı divizionlardan aşağılara, adlı-sanlı komandalardan lokal vəzifələri həll edənlərə üz tutub yenidən yüksəlməsidir. Belə oyunçular eniş-yoxuşlardan, necə deyərlər, dərələrdən-təpələrdən yel kimi keçərək, əsl mübarizənin od-alovundan çıxıblar. Buna görə rəqibi layiqincə qiymətləndirməyin və baş məşqçinin planlarına əməl etməyin nə olduğunu bilirlər.

İngiltərə xarizmatizmini itirmiş, lakin futbol banisi kimi imicini daim qoruyaraq, simasını dəyişmək gücünə də sahib çıxıb. Əsl ingilis xarakteri ilə bu ölkənin futbolçuları da iki fərqli nəslin təmsilçiləri ilə vahid ideya ətrafında birləşmək gücünü göstərib, finala yetişməyi haqq edib. Əlbəttə, qitə çempionatının həlledici görüşlərinin Londonda keçirilməsi, hətta Danimarka ilə oyundakı vurulmayan, lakin qapıçının qaytardığı topu tora qovuşduraraq qələbə sevinci yaşayan Harri Keynin ifasındakı penalti epizodunda qapıçının gözlərinin xoşagəlməz lazerlə şüalandırılması, azarkeşlərin dəb-ərkan qaydasına sığışmayan küçə özbaşınalıqları belə İngiltərə millisinin final haqqını mübahisə mövzusuna çevirə bilməz. Danimarkaya haradasa təcrübə və ya inamsızlıq mane oldusa, ingilislərə həm də qeyri-ingilissayağı özünəinam, həm də həvəs və istək dəstək oldu. Bəlkə də futbol banilərinin tarixində çatışmayan bu kubok üçün Sautgeytin gətirdiyi yeniliklərin əzmlə iradəsinin ənənəvi təkəbbürdən fərqini anlayan və ulduzluq dərəcəsində miqyasının, parlaqlıq göstəricisinin yuxarı olmaması təsirini göstərdi. Düşünməyin ki, meydanda məzmunsuz, iradəsiz, tamaşasız, yorucu, elə yalnız geriyə ötürmələrlə göz oxşamayan özünəbənzəməz ingilis komandasında praqmatizm qalib gəlib. Əksinə, İngiltərə 2012-ci ildəndir istifadəyə verdiyi futbol evi - milli akademiyası ilə bu yola çıxıb. Onun müəlliflərindən biri kimi, Sautgeyt illərdir bu komandanın fəlsəfəsinin müəlliflərindəndir. Axı, tarix boyu futbolu yaradıb cəmi bir dəfə final görən, hələ üstəlik, 55 ildir keçirdiyi 26 turnirdə finala belə həsrət qalan komanda, bu az imiş kimi, 2000-ci illərin ulduz heyətilə də uğursuz qalanda, indiki vəziyyətə haqq qazandırmaq olar. Təsəvvür edin ki, bütün yarışlara favoritlərdən biri kimi başlayıb, həmişə də "onsuz da qalib gələ bilməyəcəksən" qorxusu ilə yaşayasan. Bəli, nəhayət bu ənənəyə son qoyulur.

Hər iki komanda haqqında sözlərimizi cəm etsək, COVID-19 pandemiyasına qarşı mübarizədə lap əvvəldə apardığımız bənzətməli müqayisədəki kimi, "bir olaq, qalib olaq" şüarına sahib çıxa bilən, habelə kommunikativ və inforamtiv texnoliji imkanlı modern insan obrazı üçün lazım olan keyfiyyətlərə nail olan komandaların finala adlamasını bir rəmz adlandıraq və yolumuza buradan çıxaq.

Erkən qol da sanki meydan mübarizəsini müəyyən etdi. Sonrakı dəqiqələrdə ənənələrin taktiki mübarizə fonunda italyansayağı basqılar, ingilissayağı həmlələr, qol buraxdıqdan sonra qəribə çaşqınlıq, nəhayət, bir hücumla bərpa edilən oyun tarazlığı tribunaları, eləcə də ekran qarşısında olanları da həyəcan içində saxladı. Sürət həddi, texniki ifa, əldə olunan imkanlar hər biri futbol tamaşasına bəzək oldu.

Əlbəttə, final üçün kifayət qədər tarixi və statistik idman qəzəbi nümunəsi düşünə bilərik. Bu görüşə qədər cəmi bir qol buraxmış, özü də hesabda geri düşərək əlavə vaxta nail olub qələbə qazanan İngiltərənin titulsuzluğunu dediksə, 33 oyun məğlubiyyətsiz irəliləyən italiyalıların da hirsini boğmamağa əsasını qeyd edək: 2000 və 2012-ci illərdə finalda qələbənin əldən verilməsi bir yana, komandanın yeganə uğurunun az qala yarım əsrdən çox - 1968-ci ilə gedib çıxan tarixçəsi var.

Bir sözlə, həvəsdir bəsdir, coşğu da italiyalılara bəs etmədi. Əldən verilən şans, get-gedə sərtləşən xarakter sözünü dedi. Bütün bunlar anlaşılandır, tarixi məsuliyyət var. Nəhayət, belə bir finalın yekununda heç kim uduzmadı, amma çempion da bəlli oldu - penalti bəxtəbəxtində - əsəblərin həqiqətən gərildiyi məsuliyyət döyüşündə İtaliya 53 ildən sonra bir daha qitə çempionluğu zirvəsinə yüksəldi. Həm də tarixin daha bir tilsimini qıraraq: ilk dəfə bir komanda Avropa çempionatında dalbadal iki dəfə penaltilər seriyasında qalib gəlir. Hələ onu da deməli lazımdır ki, 1976-cı ildən bu yana, yəni 45 ildən sonra (Çexoslovakiya - AFR 2:2, 5:3) qalib yenə penaltilər seriyasında müəyyən edildi.

Hələ bir tarixi də əlavə edək. 1968-ci ildə İtaliya birbaşa çempion ola bilməmişdi. Komanda birinci oyunda Yuqoslaviya ilə bu dəfəki kimi 1:1 hesabı ilə heç-heçə oynamışdı. O vaxtın futbol qaydalarına görə təkrar oyun keçirilmişdi və bu dəfə məşhur "Olimpiko" ev sahiblərinin üzünə gülmüşdü - 2:0.

Tarixdən hələlik bu qədər. Ən əsası, meydanda daha yaradıcı, daha həvəsli, daha əzmkar komanda qalib gəldi. Lakin əsas məqamlardan bir də odur ki, İngiltərə də sindromu qıraraq, nəhayət ki, final üzü gördü. Ən azı, tarixindən əbədi "favorit məğlub" imicini götürdü. İndi bu komanda irəliyə bir az inamla baxa bilər.

Ümumən, COVID-19 mövzusuna da nəzər salaq, xatırlayırsınızsa, bu pandemiyanın ilk qurbanları sırasında və Avropanın ən acınacaqlı vəziyyətə düşən ölkəsi kimi İtaliya liderlərdən idi. O vaxtdan bu yana keçən dövrdə bəlkə də apenninlilərin qələbəsi həm bir təsəllidir, həm də koronavirusun qapısına qələbə qolu rəmziləşdirmək olar.

İndi ümid edək ki, bu, həqiqətən COVID-19-un qapısına vurulmuş qələbə qoludur və heç-heçə ilə əlavə vaxt olmayacaq.

***BATI YAR***

## "Avro-2020" rəqəmlərin dili ilə:

**1/2 final.** London. "Uembli" stadionu.

**6 iyul. İspaniya - İtaliya 1:1** (1:1, Alvaro Morata, 80//Federiko Kyeza, 60) - pen ilə. 2:4.

**Penaltilər (İspaniya - İsveçrə):** Manuel Lokatelli (-, qapıçı) - Dani Olmo (-, tir üzərindən), Andrea Belotti - Jerar Moreno, Leonardo Bonuççi - Tyaqo Alkantara, Federiko Bernardeski - Alvaro Morata (-, qapıçı), Jorjinyo.

**7 iyul. Danimarka - İngiltərə 1:2** - ə.v. (Mikkel Damsqaard, 30//Simon Kyar, 39-öz qap., , Harri Keyn, 104).

**Final. 11 iyul. London.** "Uembli" stadionu. 67,173 tamaşaçı

**İtaliya - İngiltərə 1:1** (1:1) - pen ilə 3:2

**Hakimlər:** Byörn Kuypers - Sander van Rokel, Ervin Zeynstra (Niderland) - Karlos del Serro Qrande (İspaniya).

**VAR referisi:** Bastyan Dankert (Almaniya).

**Qol:** Leonardo Bonuççi, 67//Lyuk Şou, 2

**Penaltilər (İtaliya-İngiltərə):** Berardi - Keyn, Belotti (-; qapıçı) - Maquayr, Bonuççi - Rəşford (-; dirək), Bernardeski - Sanço (-; qapıçı), Jorjinyo (-; qapıçı) - Saka (-; qapıçı),

**Sarı vərəqə:** Barella, 47, Bonuççi, 55, İnsinye, 84, Kyellini, 90+6, Jorjinyo, 114//Maquayr, 106.

**İtaliya:** Canluici Donnarumma, Covanni Di Lorenso, Corcio Kyellini (kap.), Leonardo Bonuççi, Emerson Palmeri dos Santos (Alessandro Florentsi, 118), Jorjinyo, Marko Verratti (Manuel Lokatelli, 96), Nikolo Barella (Brayan Kristante, 54), Federiko Kyeza (Federiko Bernardeski, 86), Lorenso İnsinye (Andrea Belotti, 91), Çiro İmmobile (Domeniko Berardi, 55).

**Baş məşqçi:** Roberto Mançini.

**İngiltərə:** Cordan Pikford, Kayl Uoker (Ceydon Sanço, 120), Harri Maquayr, Con Stounz, Lyuk Şou, Kiran Trippyer (Bukayo Saka, 70), Deklan Rays (Cordan Henderson, 74, Markus Rəşford, 120), Kelvin Fillips, Meyson Maunt (Cek Qriliş, 99), Rəhim Sterlinq, Harri Keyn (kap.).

**Baş məşqçi:** Qaret Sautgeyt.

**Ən məhsuldarlar:** 5 - Patrik Şik (Çex Resp.), Kriştianu Ronaldu (Portuqaliya).

## Karateçilərimiz Xorvatiyada keçirilən Gənclər Liqasında uğurla çıxış ediblər

***Xorvatiyanın Poreç şəhərində Dünya Karate Federasiyasının (WKF) Gənclər Liqası - mövsümün ikinci turniri başa çatıb.***

Kadetlər arasında 57 kiloqramadək final görüşündə idmançılarımız Məhəmməd Xamoyev və Salman Əlirzayev üz-üzə gəliblər. M.Xamoyev qalib gələrək qızıl medala sahib olub. Eyni yaş qrupunun 70 kiloqramadək görüşlərinin həlledici qarşılaşmasında da həmyerlilərimiz qarşılaşıblar. Rumil Cəfərli Xudaş Ağayevi məğlub edərək çempion olub. Kadetlər arasında daha bir gümüş medalı Aysu Əliyeva (47 kq) əldə edib. U-14 turnirində İsmayıl Xamoyev birinci, Ələddin Məlikov (hər ikisi 45 kq) isə üçüncü yeri tutublar.

Gənclər Liqasına 50 ölkəni təmsil edən 1590 idmançı qatılıb. Yarışda 29 idmançımız iştirak edib. Turnir avqustun ikinci yarısı Finlandiyanın Tampere şəhərində yeniyetmə və gənclər arasında keçiriləcək Avropa çempionatına son hazırlıq xarakteri daşıyıb.

## İdman tibbi və reabilitasiya ixtisası üzrə magistraturaya qəbul imtahanının ikinci mərhələsi keçirilib



***Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) təhsil standartı London Universitet Kolleci (UCL) tərəfindən hazırlanan, tədrisi ingilis dilində aparılan həkimlər üçün "İdman tibbi və reabilitasiya" ixtisası üzrə 2021/2022-ci tədris ili üçün magistratura təhsil səviyyəsində qəbul imtahanının ikinci mərhələsi keçirilib.***

Qəbul imtahanının ikinci mərhələsi onlayn müsahibə şəklində təşkil edilib. Onlayn müsahibədə "İdman tibbi və reabilitasiya" magistr ixtisası standartının müəllifi, London Kollec Universitetinin professoru və ISEH institutunun aparıcı eksperti Maykl Pol Luzmor, sağlamlıq hüququ üzrə Avropa Assosiasiyasının vitse-prezidenti professor Vüqar Məmmədov, ADBTİA-nın tədris və elmi işlər üzrə prorektoru Təhminə Tağızadə və İdman tibbi və reabilitasiya kafedrasının müdiri, tibb elmləri doktoru İlqar Həsənov namizədlərin seçilməsində komissiya üzvləri kimi iştirak ediblər.

# Güclünün bəxti, yoxsa taleyin rəhmi?



(Əvvəli 1-ci səhifədə)

Əlbəttə, bu məsələlərdən zamanla söz açmaq imkanımız olacaq. Hələlik isə meydana qayıdaq, o isinmə hərəkətlərinə başlayıb və qızışacaq. Bu dəfə Azərbaycan özü də Avrokuboklara fərqli gedir. Son illərdə çempionluq taxtını əldən verməyən "Qarabağ"ın büdrəməsi ilə ölkəmizin qitə yarışlarındakı rəqiblərinin seçilməsi də dəyişəcək. Çempionlar liqasında güclülər qapını döyəcək. Axı, vaxtında reytinq-xal toplamaq lazım idi. Hər halda, çempionluq həsrətinə son qoymuş "Neftçi" klublarımızın builki Avropa debütünü edib. Amma necə?

Komandanın rəqibi kimlərdəsə nisgil hissi oyadan köhnə-təzə tanış Tbilisi "Dinamo"sudur. Hələ üstəlik, onun sükançısı ölkəmizə yad adam deyil. Məşqçilik karyerasının əhəmiyyətli bir hissəsi Azərbaycanda keçmiş Kaxa futbolumuza bələddir. Hərçənd onun "Dinamo"nun sükanı arxasına yeni gəlməsi bəzi imkansızlıqların və çatışmazlıqların olacağını göstərir. Oyun təcrübəsi baxımından ölkə çempionatının qızmar vaxtında olan tbilisililər bir addım öndədirlər. Lakin oyunçu və digər komponentlərdə geri qaldıqları məqamlar da var.

Müqayisələrin ən vacib bir məqamını da söyləyək. Çempionlar liqasındakı son çıxışından sonra az qala bir nəsil dəyişdirmiş "Neftçi" üçün bu sınaq "Qarabağ"ın daim qrup turnirlərində yer alması ilə böyük məsuliyyət imtahanına çevrilib.

Keçək görünməz-bilinməz oyuna. Açığı, gözlənilənlərin ən azını da görmədik. "Neftçi"nin qəfil yeniləşmək imkanı olmasa, vəziyyət kritik həddə çatacaq. Komanda kiminsə "bəxt", kiminsə "taleyin hədiyyəsi" adlandırdığı qələbə ilə bütün idman ictimaiyyətini sevindirmək əvəzinə, sual qarşısında qoyub. Söz yox ki, qələbə, hələ onun səfərdə qazanılması ümid, stimuldur. İndi təsəvvür edin ki, bu oyunla evdəki qarşılaşmaya çox ehtiyatlı yanaşmaq məcburiyyətindəsən. Bu heç Pirr qələbəsi də deyil. Səbəbi isə "Neftçi"nin meydanda göstərə bilmədikləridir. Başqa sözlə, meydanda uduzan dinamoçular oldular, qalib isə görünmədi. İlk fürsətdə vəziyyəti yaxşı dəyərləndirən Namiqin fərdi ustalıqla topu qapıçının başı üzərindən dioqanal boyu əks küncə göndərməsi böyük ümid vermişdi. Bu, əslində ev sahiblərinin cəzası idi. Onlar sanki hesabda öndəymiş kimi davranıb əvvəldən tam heytlə meydanın özlərinə aid hissəsində qalıb, əks hücumda rəqibi cəzalandırmaq fikrində idilər. "Neftçi" az qala bu tora düşəcəkdi ki, qol vuruldu. Məhz buraxılan qoldan sonra Tbilisi futbolçuları tam qüvvə ilə "Neftçi"ni əzdilər. Qapıçı, yəqin bəxt, bir də yəqin rəqibin naşılığı olmasaydı, hesab artıq fasiləyə qədər ev sahiblərinin xeyrinə, həm də bir neçə dəfə artıq olmalı idi.

Hesab bərabərləşdi, dinamoçuların ikinci hissədə təpərində dəyişiklik olmadı. Ümumiyyətlə, meydanda təhlil üçün bir əsas, bir ipucu yox idi. Penaltidən əvvəl vurulmayan, sonra dəqiq yerinə yetirilən ikinci qol və hakimin onun təkrarlanmasını tələb etməsi qaydalara tam uyğun idi. Amma bu qələbəni "Neftçi"nin necə qazanmasını inanmıram ki, komandanın özündən də bir kimsə izah edə bilsin. Bax elə buna görə, Bakıda nə olacağını da demək olmaz.

Hə, bir məsələni də deyim. UEFA nəhayət ki, proqressiv addım ataraq, "səfər qolu" prinsipini ləğv edib. Bu mübarizə strategiyasına da təsir edən amildir. İnanmaq istərdim ki, "Neftçi" eləcə də digər komandalarımız bunun strateji fərqi və oyuna hazırlıq hesablamalarındakı rolunu diqqətə alıblar.

Bir sözlə, qalib gələrək evində növbəti oyuna çıxacaq "Neftçi"ni qarşıdakı qarşılaşmada, hətta bu səddi keçsə belə, Yunanıstanda müşküllər gözləyir. Komandanın qısa müddətdə dəyişmək imkanı olacaqmı? sualı isə cavab həsrətindədir.

**BATI YAR**

**P.S.** Çempionlar liqasının bu mərhələsində "Qarabağ"dan Polşanın Varşava "Legiya"sına keçmiş Mahir Emreli komandasının səfərdə Norveç "Bodo/Qlimt"l üzərində 3:2 hesablı qələbəsində böyük pay sahibi olub. O, 41-ci dəqiqədə hesabı 2:0-a, 61-ci dəqiqədə isə 3:1-ə çatdırıb.

**Çempionlar liqası. Birinci təsnifat mərhələsi. İlk oyun.**

**"Dinamo" Tbilisi (Gürcüstan) - "Neftçi" (Azərbaycan) 1:2 (1:1)**

Tbilisi. Boris Payçadze adına milli stadion.

**Hakimlər:** David Fuksman - Nati Dotan, Matityahu Yakobov - İdan Leyba (İsrail).

**Qol:** Maruşiç, 36//N.Ələsgərov, 23, E.Mahmudov, 57-pen.

**Sarı vərəqə:** Kardava, 84//Laval, 77.

**"Dinamo":** Roin Kvasxvadze, Simon Qbenyon, Saba Xvadagiani, Levan Xarabadze (Tornike Morçiladze, 73), Fabian Sporkslede (Barns Osey, 83), Milan Radin, Bakar Kardava, Qiorqi Papava (kap.), Giorgi Kutsia (Nodari Kavtaradze, 68), Giorgi Qabedava (Tornike Axvlediani, 68), Zoran Maruşiç.

**Baş məşqçi:** Kaxaber Sxadadze.

**"Neftçi":** Aqil Məmmədov, Mamadu Mboc, Mərd Çəlik, Voislav Stankoviç, Arramiş, Yusuf Laval (Ömər Buludov, 86), Mamadu Kane, Emin Mahmudov (kap.), Sabir Buqren (Mirabdulla Abbasov, 90), Sezar Meza Kolli (Xəyal Nəcəfov, 88), Namiq Ələsgərov.

**Baş məşqçi:** Samir Abbasov.

**Cavab görüşü**

***"Neftçi" (Azərbaycan) - "Dinamo" Tbilisi (Gürcüstan)***

***14 iyul. Bakı. "Baksel Arena"***

**Hakimlər:** Dumitri Muntyan - Vlad Lifsyu, Vadim Viçol - Qabriel Tupitsiça (Moldova).



# Erməni güləşçiyə qalib gələrək Avropa çempionu olan Fərid Baxışlı ilə görüş keçirilib

***Bolqarıstanın Samokov şəhərində keçirilən yeniyetmələr arasında Avropa çempionatında uğurla çıxış edən Fərid Baxışlı (55 kq) ilə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində (BŞGİBİ) görüş keçirilib.***

Əvvəlcə Fərid Baxışlı haqqında videoçarx nümayiş olunub.

Baş İdarənin rəisi Raqif Abbasov tədbirdə çıxış edərək yarışda qazandığı uğur münasibətilə Fərid Baxışlını təbrik edib, onun bu nailiyyətini yüksək qiymətləndirib: "Sevindirici haldır ki, bu gün idmançılarımız öz qələbələrini şəhidlərimizin xatirəsinə, qazilərimizə həsr edirlər. Onların nümayiş etdirdiyi sonsuz vətənpərvərlik ruhu, vətəndaş həmrəyliyi hər birimizin qəlbini qürur hissi ilə doldurur. Bu baxımdan idmançılarımızın hər bir qələbəsi bizim üçün xüsusi önəm kəsb edir".

Beynəlxalq turnirdə ardıcıl Estoniya, Belarus, Almaniya və Rusiya təmsilçiləri ilə gərgin keçən görüşlərdə qalib gələrək finala yüksəldiyini deyən Fərid Baxışlı Ermənistan idmançısı ilə üz-üzə gəldiyi həlledici qarşılaşma barədə danışarkən bildirib: "Erməni idmançı ilə görüşdə böyük fərqlə hesabda geri olduqda belə, qalib gələcəyimə inanırdım. Düzdür, bu, idmandır və hər bir nəticə gözlənilə bilər. Amma mən bunu qəbul edə bilməzdim. Axıradək mübarizə apardım və geridönüş edərək sonuncu xal prinsipinə əsasən Avropa çempionu oldum. Qələbələrimizi gələcəkdə də təkrarlamağa çalışacağıq".

İdmançının məşqçisi İmran Qədirov yeniyetmələr arasında Avropa çempionatında görüşlərin son dərəcə gərgin keçdiyini vurğulayaraq deyib: "Avropa birinciliyində güclü idmançılar mübarizə aparırdılar. Çünki bu turnirə öz ölkələrində çempion olan güləşçilər qatılmışdılar. Fəridin belə mötəbər turnirdə qazandığı qələbə bütün Azərbaycan xalqının uğurudur".

Sonda Baş İdarə tərəfindən Fərid Baxışlıya diplom və hədiyyə təqdim olunub.

# Paralimpiyaçılarımız "Tokio 2020"yə Şamaxıda və Göygöldə hazırlaşırlar

***Parataekvondo və paracüdo üzrə milli komandalarımız "Tokio 2020" Yay Paralimpiya Oyunlarına hazırlıq məqsədi ilə təlim-məşqlərə başlayıblar.***

Parataekvando millimiz baş məşqçi Fərid Tağızadənin rəhbərliyi altında Şamaxıda təlimlərdədir. Məşqlər iyulun 24-dək davam edəcək.

Kişilərdən ibarət paracüdo millimiz isə hazırlığı baş məşqçi İbrahim İbrahimovun rəhbərliyi altında Göygöldə keçir. Təlimlər iyulun 22-dək davam edəcək.

Qeyd edək ki, parataekvandoçularımızdan Röyalə Fətəliyeva (49 kq), Aynur Məmmədova (+58 kq), İmaməddin Xəlilov (61 kq) və Əbülfəz Abuzərli (75 kq), kişi paracüdoçularımızdan isə Vüqar Şirinli (60 kq), Namiq Abaslı (66 kq), Ramil Qasımov (73 kq), Hüseyn Rəhimli (81 kq), Kənan Abdullaxanlı (100 kq) və İlham Zəkiyev (+100 kq) "Tokio 2020" Yay Paralimpiya Oyunlarına lisenziya qazanıblar.

# Tamblinqçilərimiz Rusiyada beynəlxalq turnirdə 4 medal qazanıblar



***Tamblinqçilərimiz Rusiyanın Mineralnıye Vodı şəhərində təşkil edilmiş məşq toplanışında və hazırlığın sonunda keçirilmiş yarışda iştirak ediblər.***

Məşq toplanışında və yarışda tamblinqçilərimiz - Mixail Malkin, Bilal Qurbanov, Tofiq Əliyev, Adil Hacızadə, Hüseyn Əsədullayev, Aleksey Karataşov və Elnur Məmmədov iştirak ediblər.

Təlim-məşq toplanışı iyunun 23-dən iyulun 1-dək davam edib. Ardınca tamblinqçilərin "Zvyozdi prijkov" adlı yarışı keçirilib. Turnirdə böyüklər arasında yarışan M.Malkin və gənclər yaş qrupunda çıxış edən A.Hacızadə və B.-Qurbanov ikinci, A.Karataşov isə üçüncü yerdə qərarlaşıblar. Digər gimnastlarımız H.Əsədullayev, E.Məmmədov və böyüklər arasında yarışan T.Əliyev müvafiq olaraq 12-ci, 10-cu və 8-ci nəticəni göstəriblər.

# Cüdo referimiz beynəlxalq dərəcəli hakim adına layiq görülüb

***Portuqaliyanın Koimbra şəhərində Beynəlxalq Cüdo Federasiyasının hakimləri üçün seminar keçirilib.***



Seminarda ədalət təmsilçiləri beynəlxalq dərəcəli hakim adı almaq üçün imtahan veriblər.

Nəticədə Azərbaycanın ədalət təmsilçisi Akif Tahirov beynəlxalq dərəcəli hakim adına layiq görülüb. Referi seminara Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə qatılıb.

Namizədlə əvvəlcə nəzəri və ingilis dili biliklərinin yoxlanması məqsədi ilə müsahibə keçirilib. Növbəti iki gün ərzində namizəd hakimlər tatami üzərində Avropa kubokunun görüşlərini idarə edərək praktik imtahan veriblər.

Hakimimiz Koimbrada keçirilən gənclərin Avropa Kubokunun görüşlərini uğurla idarə edib.

# İDMAN

№ 14 (7109) 13 iyul 2021


# 7 gedişə dünya çempionunu təslim edən Şəhriyar



*”Xaqani, sən adi piyadəsən bil,*
*Yeddi yol keçməyin, çox asan deyil”*

Bu misralar doqquz əsr öncə şahmat oyununa çox yaxşı bələd olan görkəmli Azərbaycan şairi Xaqani Şirvaninin qələmindən çıxıb. Əsərlərində şahmat fiqurlarının hərəkət və dəyərindən bir neçə dəfə istifadə edən şair bu yolun asan olmadığını aşağıdakı misralarda izah edib:

*”Keçsən də çox çətin vəzir olarsan*
*Ki, yolu kəsmişdir bir qoşun qatil”.*

Əlbəttə ki, şahmatda bu yolu keçmək asan deyil. Təbii ki layiqli rəqiblə oyunda. Bəs sadəcə 7 gediş etmək necə?

Ümumiyyətlə, sadəcə 7 gediş etmək istənilən şahmatçı üçün asan bir işdir. Və yenə də təbii ki, bu gedişlərlə oyunun davamının planlaşdırılmasını nəzərə almaqsa. Hər halda şahmat yarışlarında kiminsə 7 gediş edib dayanması nadir hallarda təsadüf edilir.

Doğrudur, şahmat tarixində daha erkən təslimçilik də olub. 1935-ci ildə Alyoxin Polşada Alisi 6 gedişə mat edib. 1988-ci ildə gələcəyin dünya çempionu Vişvanatan Anand Alonso Sapataya təslim olub.

Bəs bu çətinlik qarşısında artıq dünya çempionu olmuş şahmat dahisi qalanda necə?

Bəli, şahmat tarixi belə bir halı da yaşadı. Bu uğursuz taleyi yaşamaq keşmiş bakılı, 13-cü dünya çempionu Harri Kasparovun nəsibi oldu. Və Kasparova bunu yaşadan onun ilk dəfə dünya çempionu olduğu ildə dünyaya gəlmiş Azərbaycan şahmatçısı, şahmat tarixində gənclər arasında yeganə ikiqat dünya çempionu, hazırda dünya şahmat reytinqinin 6-cısı olan Şəhriyar Məmmədyarovdur. Bu hadisə ”Grand Chess Tour” şahmat seriyasının üçüncü mərhələsində - Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən ”Croatia Grand Chess Tour”un blits turnirinin ilk dövrəsində baş verdi. Həmin hadisə bu gedişlər qarşılığında tarixə düşdü: 1.d4 d5 2.c4 dxc4 3.e3 e5 4.Af3 exd4 5.Fxc4 Af6 6.Vb3 Ve7 7.0-0.

Doğrudur, uzun illərdir şahmat yarışlarından uzaq qalan Kasparov hazırda ideal formasından çox uzaqdır və turnirdə ümumi çıxışı - 18 partiyada cəmisi 1 qələbə və 4 heç-heçəsi də bunu əyani göstərir. Bununla belə, hətta bu reallıqda şahmat tarixində ad qoymuş keçmiş dünya çempionunun belə erkən - 7 gedişə təslim olması heç gözlənilən hal deyildi.

İkinci dövrədə rəqiblər bir daha üz-üzə gəldilər. Bu dəfə Kasparov Şəhriyara 26-cı gedişdə təslim oldu.

Turnirin nəticələrinə gəldikdə, rapid və blitsin ümumi yekununda Şəhriyar 19 xalla 6-cı oldu. Ən yüksək nəticəni isə 23 xalla fransalı Maksim Vaşye-Laqrav göstərdi.

Ümumiyyətlə, Kasparovun Azərbaycan şahmatçıları ilə oyunu heç alınmır. 2003-cü ildə Teymur Rəcəbov da 16 yaşında ikən Linaresdə 13-cü dünya çempionunu məğlub etmişdi.

**VÜQAR**




# “Qusar Open 2021” beynəlxalq şahmat turnirinin qalibləri müəyyənləşib

***Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Azərbaycan Məktəb İdmanları Federasiyasının dəstəyi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin və Azərbaycan Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə Qusar rayonunda ”Qusar Open 2021” beynəlxalq şahmat turniri keçirilib.***

Turnirdə Bakı, Sumqayıt, Xaçmaz, Qusar, Quba rayonları ilə yanaşı Gürcüstan və Rusiya federasiyasından da şahmatçılar iştirak ediblər.

Beynəlxalq turnir həm reytinqli, həm də dərəcə normativli yarış hesab olunub. Eyni zamanda, bu yarış təşkilatçılar tərəfindən pandemiya dövründə açıq havada keçirilən ilk böyük yarışdır. 2004-cü il təvəllüdlü və daha kiçik yaş qrupuna aid olan uşaqların iştirakı ilə keçirilən yarış 9 turdan ibarət olub və dörd gün ərzində davam edib.

Qrossmeysterlər Şəhriyar Məmmədyarov və Nicat Məmmədov turnirdə qonaq qismində iştirak ediblər. Nicat Məmmədov turnir işrirakçılarına seans verib və müəllifi olduğu ”Həlledici taktiki zərbələr” adlı kitabını gənc şahmatçılara təqdim edi.

Yarışın yekununda 8 xal toplayan İbrahim Seyidov turnirin qalibi olub. İkinci yeri Rüstəm Rüstəmov, üçüncü pilləni isə Paşam Əlizadə tutublar. Qızlar arasında Firəngiz Tarverdiyeva, Əsnad Baxşızadə və Dəniz Dövlətzadə fərqləniblər. 8 yaş qrupunda Fatimə Mirzəliyeva, Burzu Sarhad, Yusif Musasoy, 10 yaşlılarda Murad Rzayev, Ceyhun Zeynalzadə, Leyla Mirzəliyeva, 12 yaşlılar arasında Kənan İsbatov, Nursübhan İsmayılzadə, Rəvan Şatırov, 14 yaşlılar qrupunda Rahim Qasımzadə, Allahverdi Həmidov, Sahib Əsgərov, 16 yaşlıların mübarizəsində Mirmehdi Səlifli, Məhəmməd Əsgərov və Rəşid Səfərov ilk üçlükdə yer alıblar.

# Dünya çempionatının keçirildiyi zalın tərtibatında akrobatımızın simvolik siluetindən istifadə olunub

***İsveçrənin Cenevrə şəhərində akrobatların daha bir yarışı baş tutub. Belə ki, akrobatika gimnastikası üzrə dünya yaş qrupları yarışlarının ardınca bu növ üzrə dünya çempionatı keçirilib.***




Yarışda ölkəmizi Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlük, Murad Rəfiyev və Daniel Abbasovdan ibarət kişi cütlüyü təmsil edib.

Bu çempionat akrobatlarımızın pandemiya dövründə iştirak etdiyi ilk irihəcmli yarış idi. A.Rəhimov və R.Seyidli daha əvvəl digər proqramlarda çıxış ediblər. Amma cütlük olaraq onlar bu ildən yarışlara qatılırlar. Bu çempionatda onlar ən yaxşı nəticələrini temp hərəkətlərində nümayiş etdirərək, 7-ci olublar.

Avropa çempionatının gənclər yaş qrupunda üç qat mükafatçısı olan kişi cütlüyümüz də bu ildən etibarən böyüklər arasında çıxışlarını nümayiş etdirirlər. Yarışda onlar ən yaxşı nəticələrini qarışıq hərəkətlərdə göstəriblər (9-cu yer).

Yarışda gimnastımız A.Rəhimov maraqlı bir halla qarşılaşıb. Belə ki, dünya çempionatının keçirildiyi zalın tərtibatında akrobatımızın simvolik siluetindən istifadə olunub.

# Serbiyada iki şahmatçımız fərqləndi

***Serbiyanın paytaxtı Belqradda birinci beynəlxalq ”Serbia Chess Open 2021” şahmat turniri başa çatıb.***

Şahmatçılarımız turnirin ”Masters” yarışında uğurla çıxış ediblər. Təmsilçilərimiz Ülvi Sadıqov, Misrətdin İsgəndərov liderdən cəmi yarım xal (7 xal) geri qalaraq 2-10-cu yerləri bölüşüblər. Digər şahmatçılarımız Eltac Səfərli, Vüqar Əsədli 6,5 xal, Əhməd Əhmədzadə, Məhəmməd Muradlı 6 xal, Pərviz Qasımov, Aydın Süleymanlı, Xəzər Babazadə 5,5 xal, Gövhər Beydullayeva 5 xal, Read Səmədov 4,5 xal qazanıblar.

”Serbia Chess Open 2021”də 41 ölkədən 400-dən yuxarı şahmatçı iştirak edib.

# AMADA “Tokio-2020”yə qatılacaq idmançılara və onları müşayiət edəcək heyətə müraciət ünvanlayıb

*(Əvvəli 5-ci səhifədə)*

Qeyd edilib ki, sadalanan bütün bu məsələlərlə bağlı Agentlik geniş maarifləndirmə proqramı həyata keçirir. İdmançılar və onları müşayiət edən heyət üçün silsilə təlimlər keçirilir. Bu təlimlərdə Tokioda dopinq nəzarətinin həyata keçirilməsi və antidopinq qaydaları ilə bağlı bütün vacib məlumatlar onlara çatdırılır. İyunun 25-də AMADA-nın Milli Olimpiya Komitəsi ilə birlikdə keçirdiyi Oyunlara həsr olunmuş iclasda da respublika idman federasiyalarının nümayəndələri bu barədə ətraflı məlumatlandırılıb.

Müraciətdə qeyd olunub ki, bir müddət əvvəl Tokio Yay Olimpiya Oyunlarına gedəcək idmançılar üçün ”ADEL for Tokyo 2020 Olympics” platforması istifadəyə verilib. Tokio-2020-yə lisenziya qazanmış idmançılar və onları müşayiət edəcək heyətin bu onlayn kursu keçib sertifikat alması vacibdir. AMADA idmançılara və Tokioya yollanacaq heyətə dəstək məqsədilə həmin onlayn kursu Azərbaycan dilinə tərcümə edib. Bundan əlavə, idmançıların və onların köməkçi heyətinin kurslardan keçməsi üçün bütün lazımi dəstək göstərilir. Artıq Tokio-2020 Yay Olimpiya Oyunlarında iştirak edəcək 44 idmançıdan 42-si ”ADEL for TOKYO 2020” kursunu keçərək sertifikat əldə edib. Onları müşayiət edəcək 45 nəfər köməkçi heyətdən 41-i sertifikat əldə edib. Bundan əlavə, Tokio Yay Olimpiya Oyunlarında iştirak edən 4 nəfər tibb heyətindən 2-si ”ADEL for Medical Professionals”, 1-i ”ADEL for Medical Professionals at Major Games”, 1-i isə hər iki kursu keçərək sertifikat əldə edib. Tokio-2020 Yay Paralimpiya Oyunlarına lisenziya qazanan 31 idmançıdan 15-i ”ADEL for TOKYO 2020” kursunu keçərək sertifikata sahib olub. Hazırda bu proses davam edir.

”İdmançılara dəstək məqsədilə Yay Olimpiya Oyunları müddətində AMADA-nın Çağrı Mərkəzi də fəaliyyət göstərəcək. İyirmi dörd saat fəaliyyət göstərəcək bu Çağrı mərkəzinə idmançılar antidopinq məsələləri ilə bağlı günün istənilən vaxtı müraciət edib, lazım olan məlumatları ala biləcəklər. AMADA-nın bütün bu layihələri həyata keçirməkdə məqsədi idmançılarımızın Vətənimizi layiqincə və ləyaqətlə təmsil etməsinə dəstək olmaq və ölkəmizin idman nüfuzunu qorumaqdır”, - deyə AMADA-nın müraciətində qeyd olunub.


Qəzetin təsisçisi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyidir

Baş redaktor: Qabil MEHDİYEV

Ünvan: AZ-1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, III mərtəbə. Telefon: faks: 510-53-10,
Web: www.azsport.az;
E-mail: idman@mys.az; Lisenziya: B235
Bank rekvizitlərimiz: h/h-AZ69AIIB33080019443300230103,
VÖEN: 1300432691, "Kapitalbank"ın Yasamal filialı, kod-200037,
VÖEN: 9900003611, Müxbir hesab: AZ37NABZ01350100000000001944

“İdman”ın kompüter mərkəzində yığılıb-səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
Tiraj: 1000 Sifariş: 1238
Qəzet hər həftənin çərşənbə axşamı günü çıxır.
Redaksiyaya daxil olan yazılar şərh edilmir və geri qaytarılmır.